KPMG

cutting through complexity

KPMG Azerbaijan
Tax and Legal Services

# Legislative Update Newsletter

January 2016



## In this issue:

- **Foreign currency exchange operations tightened in Azerbaijan**
- **“*Procedure on stock exchange information disclosure*” approved**
- **“*Procedures managing interests (shares) in joint ventures and joint stock companies with state-owned interests (shares) in share capital*” amended**
- **Law of the Republic of Azerbaijan “*On state duties*” amended**
- **Central Bank of the Republic of Azerbaijan revoked licenses of certain banks**
- **Amendments made to the Law of the Republic of Azerbaijan “*On tobacco and tobacco products*”**
- **“*Procedure on issuing investment promotion certificates*” defined**
- **Amendments expected to Azerbaijani legislation**

## Foreign currency exchange operations were tightened in Azerbaijan from 6 January 2016

According to decree of the Board of Directors of the Central Bank of the Republic of Azerbaijan no. 44/1, dated 29 December 2015, the Procedures “*On the organisation of exchange offices and exchange operations*” (”Procedures”) were approved, tightening foreign currency exchange operations in Azerbaijan.

According to the Procedures, in any exchange transaction through the exchange office, the client must be given a bank statement. The bank statement shall contain the following information:

- name of the bank, number and address of the exchange office;
- date and time of the transaction;
- type of the transaction/service;
- foreign currency exchange rate or amount of the service fee;
- name and amount of received cash/traveller’s cheque in the foreign currency;
- name and amount of given cash/traveller’s cheque in the foreign currency;

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

- signature of the person responsible in the exchange office and stamp with the name of the bank and number of the exchange office.

For transactions of amounts more than USD 500 (five hundred), the client is required to present documents proving his/her identity.

## "*Procedure on stock exchange information disclosure*" was approved (effective as of 14 December 2015)

According to the decree of the State Committee for Securities of the Republic of Azerbaijan no. 31-q, dated 14 December 2015, the stock exchange is disclosing information on traded securities and derivative financial instruments and transactions concluded with them, as well as other activities of the stock exchange.

Information on securities and derivative financial instruments shall be disclosed to stock exchange participants before and after trades. However, the stock exchange shall not disclose information on targeted sales transactions and auctions.

Following trading, information on each security's transactions (quantity and date of transactions, registration number, international identification code, name of issuer, minimum and maximum share, and purchase price registered during the trading day) must be disclosed via the internet at the end of trading day by the stock exchange.

According to the Procedure, information on the quantities and amounts of transactions on the primary and secondary markets, as well as investment company information, shall be disclosed by the stock exchange within 5 (five) business days of the month following the reporting month. Furthermore, information on the average daily turnover and average daily quantity of transactions shall be disclosed within 15 (fifteen) business days of the first month of the next year.

## *"Procedures managing interests (shares) in joint ventures and joint stock companies with state-owned interests (shares) in their share capital"* ("Procedures") were amended (effective as of 31 December 2015)

According to decree of the Cabinet of Ministers of the Republic of Azerbaijan no. 395, dated 22 December 2015, representatives of the state who hold interest in joint ventures and joint stock companies which have state-owned interests (shares) in their share capital shall be required to agree any significant transactions or related party transactions in advance with the State Committee on Property Issues. If state representatives in the abovementioned entities act as related parties in the transaction, then they should provide further information on their interests and describe its features (its scope, etc.).

## Law of the Republic of Azerbaijan "*On state duties*" ("Law") amended on 29 December 2015 (effective as of 15 January 2016)

The new provisions define the rules for payment of state duties and licensing exemptions. Pursuant to the amendments, the state duty to be paid for licenses issued for entrepreneurial activity in the regions of Azerbaijan shall be paid at 50% of the amount defined by the relevant executive power, except for television and radio broadcasting activities.

If applying for several types of entrepreneurial activity, state duty shall only be paid for the most expensive type. If the license owner then applies to carry out additional activities not listed in the license, then a state duty of 50% of the amount defined for that license shall be paid.

Pursuant to the new added Article, no state duty is required for having one's license renewed.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

## Central Bank of the Republic of Azerbaijan revoked licenses of certain banks

According to decrees of the Management Board of the Central Bank of the Republic of Azerbaijan revoked the licenses of the following banks and appointed a temporary administrator to these banks due to failure to fulfil its obligations to creditors, manage its current activities reliably and prudentially:

- "Bank of Azerbaijan" OJSC (on 18 January 2016),
- "Ganjabank" OJSC (on 22 January 2016),
- "United Credit Bank" OJSC (on 25 January 2016),
- "Caucasus Development Bank" OJSC and "Atrabank" OJSC (on 27 January 2016),
- "Bank Technique" OJSC (on 1 February 2016).

## "*Procedure on issuing investment promotion certificates*" ("Procedure") defined on 18 January 2016 (effective as of 19 January 2016)

The Procedure gives the main criteria for financing investment projects launched by entrepreneurs. Pursuant to the Procedure, an entrepreneur shall submit an application (along with other required documents) to the Ministry of Economics of the Republic of Azerbaijan for an investment project.

## Amendments made to the Law of the Republic of Azerbaijan "*On tobacco and tobacco products*" ("Law"), effective as of 24 January 2016

According to the amendments made to the Law, a ban will be imposed on circulation and export of tobacco products, produced from genetically modified crops and/or modern biotechnological methods as well as by genetic engineering in agriculture.

## Amendments expected to Azerbaijani legislation

- **Code on Administrative Offences of the Republic of Azerbaijan:**

On 29 December 2015, the Parliament of the Republic of Azerbaijan discussed the renewed Code on Administrative Offences of the Republic of Azerbaijan ("Code") in its first reading. Unlike the previous Code, the renewed one will consist of 40 Chapters and 608 Articles. The renewed Code is expected to come into force on 1 May 2016.

- **Law of the Republic of Azerbaijan "*On the insurance of deposits*":**

  - Member banks to be pay supplementary fees up to 0.1% of the quarterly average daily balance of their protected deposits on borrowings from the Deposits Insurance Fund. Before the proposed amendments, this amount was 0.2%.
  - Payment for delayed insurance fees: a fine of 0.5% of the insurance fees shall be calculated for each day of delay.
  - If the Fund's total liquid assets fall below 1% of the protected deposits, or the funds are not sufficient for compensation payments, then the Fund may raise debt.

- **Migration Code of the Republic of Azerbaijan:**

Electronic visas for tourists is expected to be issued within 5 (five) days. Currently, this period is 10 (ten) days.

- **Law of the Republic of Azerbaijan "*On public procurements*":**

When evaluating bid proposals, procurement organizations shall apply discounts of up to 20% of their bid proposal to domestic products when compared to goods imported from abroad.

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

- **Tax Code of the Republic of Azerbaijan:**

  - the amendment makes annual interest income paid from individual deposits by local banks and also by branches of foreign banks in the Republic of Azerbaijan, as well as dividends paid by issuers for investment securities, discount and interest income exempt from income tax for 3 (three) years from 1 February 2016.

  - entrepreneurs who then gain investment promotion certificates shall benefit from tax concessions under the Tax Code of the Republic of Azerbaijan, such as: 50% exemption on the income tax of the individual entrepreneur and profit tax of the legal entities; 100% exemptions from taxes on the import of technological equipment and wheat; 100% exemptions from property and land tax. Entrepreneurs shall benefit from the above tax concessions for a period of 7 (seven) years.

- **Law of the Republic of Azerbaijan "*On currency regulation*":**

Resident and non-resident individuals and legal entities (except state owned companies and organizations, including companies and organizations of which more than 50% charter capital is owned by state) may transfer the foreign currency outside the Republic of Azerbaijan subject to the mandatory payments to be made to the state budget in the following amounts:

- For direct investment transactions (investments made to the charter capital of the company with the purpose of getting income and obtaining the right to participate in the management of the company) of resident and non-resident individual and legal entities (except banks and insurance companies) – 20% of the amount of the transaction.

- For purchase of securities by resident and non-resident individual and legal entities (except banks and insurance companies) – 20% of amount of the transaction.

- For transactions by resident and non-resident individuals and legal entities for obtaining the rights on land plot and buildings, facilities including subsoil use right, ownership rights attached to other property related to the immovable property, including other rights attached to immovable property in accordance with the laws of the country in which territory the property is located – 20% of the amount of the transaction;

- For transfers to the subsidiaries, branch offices, representative offices and other structural divisions of the resident legal entity located outside the Republic of Azerbaijan – 20% of the amount constituting more than equivalent of USD 50 (fifty) thousand per calendar year.

- For transfer of more than equivalent of USD 50 (fifty) thousand to the personal bank account of an individual and to the accounts of in the name of (or close relatives (husband (wife), parents, including husband's (wife's) parents, grandfathers and grandmothers, children, children's step-parents of his/her children (adopted children), brothers and sisters) in the foreign countries – 20% of the amount constituting more than equivalent of USD 50 (fifty) thousand per calendar year. In this context, money transfer transactions in foreign currency carried out by an individual without opening bank account during a calendar year are considered accordingly.

- The following provisions are not applicable on transfer of foreign currency by residents and non-residents (on the basis of approval documents) carried out for the following purposes:

  - payments to the account of the medical institute located in the foreign country for purposes of payment of the treatment expenses;

  - payments to the accounts of the education institute located in the foreign country with the purpose of payment of tuition fees;

© 2016 KPMG Azerbaijan Limited. All rights reserved.

- payments for the purposes of execution of court and legal enforcement bodies of the foreign countries.

In the event currency transactions are carried out by payment cards, resident and non-resident individuals and legal entities shall submit to the authorized bank that is the issuer of such card, the document approving the payment of the monetary fee in the amount of 20% of the amount of the transaction to the state budget within one month from the date the transaction took place.

**Contacts:**

**Vugar Aliyev**
**Managing Partner**

**Mushfig Aliyev**
**Director,**
**Head of Tax and Legal Department**

**Farid Isayev**
**Senior Manager,**
**Head of Legal Services**

**KPMG Azerbaijan Limited**
Port Baku, 12th floor
153, Neftchilar Avenue
AZ1010, Baku, Azerbaijan
Tel +99412 404 8910/ 11
Fax +99412 404 8914
**www.kpmg.az**

*The information contained herein is of a general nature and is not intended to address the circumstances of any particular individual or entity. Although we endeavour to provide accurate and timely information, there can be no guarantee that such information is accurate as of the date, it is received or that it will continue to be accurate in the future. No one should act on such information without appropriate professional advice after a thorough examination of the particular situation.*

*The KPMG name, logo and “cutting through complexity” are registered trademarks or trademarks of KPMG International.*

*© 2016 KPMG Azerbaijan Limited, a company incorporated under the Laws of Guernsey, acting through its Representative Office in the Republic of Azerbaijan and a member firm of the KPMG network of independent member firms affiliated with KPMG International Cooperative (“KPMG International”), a Swiss entity. All rights reserved.*

KPMG
cutting through complexity

**KPMG Azərbaycan**
Vergi və Hüquq Xidmətləri

# Qanunvericiliyə dair Yeniliklərin İcmalı

**Yanvar 2016**




## Cari buraxılışda:

- **Azərbaycanda nağd xarici valyuta əməliyyatları sərtləşdirildi**
- **“*Fond birjasının məlumatları açıqlaması Qaydası*” təsdiq edildi**
- **“*Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları”*-na dəyişiklik edildi**
- ***“Dövlət rüsumu haqqında”* Azərbaycan Respublikasının Qanununda dəyişiklik edildi**
- **Azərbaycan Respublikasının Mərkəzi Bankı bir sıra bankların lisenziyalarını ləğv etdi**
- **“*Tütün və tütün məmulatı haqqında*” Azərbaycan Respublikasının Qanununa dəyişikliklər edildi**
- **“*İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası*” müəyyən edildi**
- **Azərbaycan qanunvericilində gözlənilən dəyişikliklər**

## Azərbaycanda nağd xarici valyuta əməliyyatları 6 yanvar 2016-cı il tarxindən sərtləşdirildi

Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin 29 dekabr 2015-ci il tarixli, 44/1 saylı qərarına əsasən yenilənmiş “*Mübadilə şöbələrinin təşkili və mübadilə əməliyyatlarının aparılması*” Qaydaları (“Qaydalar”) təsdiq edilərək, Azərbaycanda nağd xarici valyuta əməliyyatları sərtləşdirildi.

Qaydalara əsasən, mübadilə şöbəsində aparılmış hər bir əməliyyat nəticəsində müştəriyə bank çıxarışı verilir. Adıçəkilən bank çıxarışında aşağıdakı məlumatlar qeyd edilir:

- bankın adı, mübadilə şöbəsinin nömrəsi, ünvanı;
- əməliyyatın tarixi və vaxtı;
- əməliyyatın/xidmətin növü;
- xarici valyutanın məzənnəsi və ya xidmət haqqının məbləği;
- qəbul olunan nağd pulun/xarici valyutada yol çekinin adı, məbləği;
- verilən nağd pulun/xarici valyutada yol çekinin adı, məbləği;

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

- mübadilə şöbəsinin məsul şəxsinin imzası və üzərində bankın adı və mübadilə şöbəsinin nömrəsi olan ştampı.

Mübadilə şöbəsində 500 (beş yüz) ABŞ dollarına ekvivalent məbləğdən artıq mübadilə əməliyyatı zamanı müştəridən şəxsiyyətini təsdiq edən sənəd tələb edilir.

## “*Fond birjasının məlumatları açıqlaması Qaydası*” təsdiq edildi (14 dekabr 2015-ci il tarixindən qüvvəyə minib)

Azərbaycan Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin 14 dekabr 2015-ci il tarixli, 31-q saylı qərarına əsasən ticarətə buraxılmış qiymətli kağızlar və törəmə maliyyə alətləri və onlarla bağlanmış əqdlər üzrə məlumatlar, eyni zamanda fond birjasının fəaliyyəti barədə məlumatlar birja tərəfindən açıqlanır.

Qiymətli kağızlar və törəmə maliyyə alətləri üzrə məlumatlar ticarət öncəsi və ticarətin sonunda birja üzvlərinə açıqlanır. Ünvanlı satış əqdləri və hərraclar üzrə məlumatlar birja tərəfindən açıqlanmır.

Ticarət günündə hər qiymətli kağız üzrə bağlanmış əqdlərə dair məlumatlar (əqdlərin sayı və keçirildiyi tarix, qeydiyyat nömrəsi, beynəlxalq eyniləşdirmə kodu, emitentin adı, ticarət günü ərzində qeydə alınmış minimal və maksimal alğı-satqı qiyməti) birja tərəfindən ticarət gününün sonunda internet vasitəsilə açıqlanır.

Qaydaya əsasən, ilkin və təkrar bazarda bağlanmış, eyni zamanda investisiya şirkətləri tərəfindən bağlanmış əqdlərin sayı və məbləği barədə məlumatlar hesabat ayından sonrakı ayın 5 (beş) iş günü ərzində birja tərəfindən açıqlanır. Eyni zamanda, orta gündəlik dövriyyə və əqdlərin orta gündəlik sayı barədə məlumatlar növbəti ilin birinci ayının 15 (on beş) iş günü ərzində açıqlanır.

## *“Nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində həmin payların (səhmlərin) idarə olunması Qaydaları”*-na (“Qaydalar”) dəyişikliklər edildi (31 dekabr 2015-ci il tarixindən qüvvəyə minib)

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 395 saylı, 22 dekabr 2015-ci il tarixli qərarına əsasən nizamnamə kapitalında dövlətə məxsus paylar (səhmlər) olan müştərək müəssisələrdə və səhmdar cəmiyyətlərində dövləti təmsil edən nümayəndələr xüsusi əhəmiyyətli əqdin və aidiyyəti şəxslərlə əqdin bağlanması zamanı bunu Azərbaycan Respublikasının Əmlak Məsələləri Dövlət Komitəsi ilə razılaşdırmalıdırlar. Bu cür müəssisələrdə dövləti təmsil edən nümayəndələr bağladığı əqdə münasibətdə aidiyyəti şəxs qismində çıxış etdiyi təqdirdə öz maraqları və onun xüsusiyyətləri (onun yaranması, həcmi) barədə məlumatları təqdim etməlidirlər.

## *“Dövlət rüsumu haqqında”* Azərbaycan Respublikasının Qanununda (“Qanun”) 29 dekabr 2015-ci il tarixində dəyişiklik edildi (15 yanvar 2016-cı il tarixindən qüvvəyə minib)

Əlavə edilmiş müddəalar lisenziya verilməsinə görə dövlət rüsumlarının ödənilməsi qaydalarını və azadolmaları müəyyən edir. Dəyişikliyə əsasən, regionlarda həyata keçirilən sahibkarlıq fəaliyyəti ilə əlaqədar verilən lisenziyalar üzrə dövlət rüsumu müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi məbləğin 50%-i həddində ödənilir (televiziya yayımı və radio yayımı istisna olmaqla).

Sahibkarlıq fəaliyyətinin bir neçə növünün həyata keçirilməsi üçün müraciət edildikdə, həmin növlərdən yalnız biri üçün dövlət rüsumu ödənilir. Bu növlər üçün müəyyən edilmiş rüsumlardan ən yüksək olanı ödənilməlidir. Lisenziyada göstərilməyən əlavə fəaliyyət növlərini həyata keçirmək üçün müraciət edildikdə, belə lisenziya üçün rüsum müəyyən edilmiş məbləğin 50%-i həddində ödənilir.

Əlavə edilmiş yeni maddəyə əsasən, lisenziyanın yenidən bərpası üçün dövlət rüsumu tələb edilmir.

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

## Azərbaycan Respublikasının Mərkəzi Bankı bir sıra bankların lisenziyalarını ləğv etdi

Azərbaycan Respublikasının Mərkəzi Bankının İdarə Heyətinin müvafiq qərarları ilə kreditorları qarşısında öhdəliklərini icra edə bilmədiyinə, cari fəaliyyətini etibarlı və prudensial qaydada idarə etmədiyinə görə aşağıdakı bankların bank lisenziyaları ləğv edildi və bu banklara müvəqqəti inzibatçı təyin edildi:

- "Bank of Azerbaijan" ASC (18 yanvar 2016-cı il tarixində),
- "Gəncəbank" ASC (22 yanvar 2016-cı il tarixində),
- "Yunayted Kredit Bank" ASC (25 yanvar 2016-cı il tarixində),
- "Qafqaz İnkişaf Bankı" ASC və "Atrabank" ASC (27 yanvar 2016-cı il tarixində),
- "Texnikabank" ASC (1 fevral 2016-cı il tarixində).

## "*Tütün və tütün məmulatı haqqında*" Azərbaycan Respublikasının Qanununa ("Qanun") 24 yanvar 2016-cı il tarixində qüvvəyə minən dəyişikliklər edildi

Dəyişikliklərə əsasən genetik modifikasiya olunmuş bitkilərdən, yaxud müasir biotexnoloji və gen mühəndisliyi metodları ilə yaradılmış kənd təsərrüfatı bitki materiallarından istifadə edilməklə istehsal olunmuş tütün məmulatlarının Azərbaycan Respublikası ərazisində dövriyyəsi və idxalının qadağan olunması müəyyən edilmişdir.

## *"İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası"* ("Qayda") 18 yanvar 2016-cı il tarixində müəyyən olundu (19 yanvar 2016-cı il tarixində qüvvəyə minib)

Qayda sahibkarlar tərəfindən həyata keçirilən investisiya layihələrinin maliyyələşdirilməsi üçün əsas meyarları müəyyən edir. Qaydaya əsasən, sahibkar investisiya layihəsi üzrə Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyinə ərizə ilə (digər lazımı sənədlər ilə birlikdə) müraciət etməlidir.

## Azərbaycan qanunvericilində gözlənilən dəyişikliklər

### Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi:

Azərbaycan Respublikasının Milli Məclisi 29 dekabr 2015-ci il tarixində yenilənmiş Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi ("Məcəllə") birinci oxunuşda müzakirə edildi. Yenilənmiş Məcəllə əvvəlki Məcəllədən fərqli olaraq, 40 fəsil, 608 maddədən ibarət olacaqdır. Yenilənmiş Məcəllənin 1 may 2016-cı il tarixində qüvvəyə minməsi nəzərdə tutulub.

### "*Əmanətlərin sığortalanması haqqında*" Azərbaycan Respublikasının Qanunu:

- İştirakçı bankların Əmanətlərin Sığortalanması Fondunun götürdüyü borc vəsaitləri üzrə qorunan əmanətlərin rüb ərzində orta günlük qalıq məbləğinin 0,1%-i həcminə qədər əlavə haqq ödəməsi nəzərdə tutulub. Təklif edilən dəyişikliklərə qədər isə bu məbləğ 0,2% təşkil edirdi.
- Gecikdirilən sığorta haqları üçün ödəniş - dəbbə pulu hər bir gecikdirilən gün üçün sığorta haqlarının 0,5% məbləğində hesablanması nəzərdə tutulub.
- Fond likvid aktivlərin qorunan əmanətlərin 1%-dən aşağı düşdüyü və ya kompensasiyaların ödənilməsi üçün vəsaitin kifayət etmədiyi təqdirdə borc vəsaitləri cəlb edə bilər.

### Azərbaycan Respublikasınım Miqrasiya Məcəlləsi:

Turistlərə elektron vizalar 5 (beş) gün müddətində verilməsi gözlənilir. Hal-hazırda bu müddət 10 (on) gün təşkil edir.

### "*Dövlət satınalmaları haqqında*" Azərbaycan Respublikasının Qanunu:

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

Xaricdən idxan olunan mallara nisbətdə satınalan təşkilatlar tender təkliflərini qiymətləndirərkən yerli mallar üzrə tender təkliflərinin 20%-nə qədər güzəşt tətbiq etməsi nəzərdə tutulmuşdur.

- **Azərbaycan Respublikasının Vergilər Məcəlləsi:**

  - fiziki şəxslərin əmanəti üzrə illik faiz gəlirləri ödəyərkən yerli bank və Azərbaycan Respublikasında fəaliyyət göstərən xarici bankların filialları eyni zamanda investisiya qiymətli kağızları üzrə divident, diskont və faiz gəlirləri ödəyərkən emitentlərin 1 fevral 2016-cı il tarixindən etibarən 3 (üç) il müddətinə gəlir vergisinə cəlb olunmaması nəzərdə tutulub.

  - investisiya təşviqi sənədini almış sahibkarlara Azərbaycan Respublikasının Vergilər Məcəlləsində bir sıra vergilərdən güzəştlər müəyyən olunması gözlənilir. Fərdi sahibkarların gəlir vergisinə və hüquqi şəxslərin mənfəət vergisinə - 50% həcmində güzəşt; texnoloji avadanlıqların və buğdanın idxalına – 100% həcmində güzəşt; əmlak və torpaq vergilərinə - 100 % həcmində güzəşt müəyyən olunmuşdur. Sahibkarlara yuxarıda göstərilən güzəştlər 7 (yeddi) il müddətinə nəzərdə tutulub.

- **"*Valyuta tənzimi haqqında*" Azərbaycan Respublikasının Qanunu:**

Rezident və qeyri-rezident fiziki və hüquqi şəxslər (dövlətin tam mülkiyyətində olan, habelə kapitalında dövlətin iştirak payı 50%-dən çox olan müəssisə və təşkilatlar istisna olmaqla) tərəfindən xarici valyutada kapitalın dövlət büdcəsinə aşağıdakı miqdarda icbari yığım ödəməklə Azərbaycan Respublikasından çıxarılmasının mümkünlüyü nəzərdə tutulub:

- rezident və qeyri-rezident fiziki və hüquqi şəxsin (banklar və sığorta təşkilatları istisna olmaqla) birbaşa investisiya (gəlir əldə etmək və müəssisənin idarə edilməsində iştirak etmək hüququna malik olmaq məqsədilə müəssisənin nizamnamə kapitalına qoyulan sərmayə) əməliyyatı üzrə - əməliyyatın məbləğinin 20% miqdarında;

- rezident və qeyri-rezident fiziki və hüquqi şəxs (banklar və sığorta təşkilatları istisna olmaqla) tərəfindən qiymətli kağızların əldə edilməsi əməliyyatı üzrə - əməliyyatın məbləğinin 20% miqdarında;

- rezident və qeyri-rezident fiziki və hüquqi şəxs tərəfindən torpaq və yerin təki də daxil olmaqla binalar, qurğular, eləcə də yerləşdiyi ölkənin qanunvericiliyi ilə daşınmaz əmlaka aid edilən digər əmlak üzərində mülkiyyət hüququnun, habelə daşınmaz əmlak üzərində başqa hüquqların əldə edilməsi əməliyyatı üzrə - əməliyyatın məbləğinin 20% miqdarında;

- rezident hüquqi şəxsin Azərbaycan Respublikasından kənarda yerləşən törəmə cəmiyyətləri, filial, nümayəndəlik və digər sruktur bölmələrinə köçürmələr üzrə - təqvim ili ərzində 50 (əlli) min ABŞ dolları ekvivalentindən yuxarı məbləğin 20% miqdarında.

- fiziki şəxsin özünün və (və ya yaxın qohumunun (əri (arvadı), valideynləri, o cümlədən ərinin (arvadının) valideynləri, babaları və nənələri, övladları, övladlığa götürənləri (götürülənləri), qardaşları və bacıları) adına xarici ölkədə açılmış hesablara 50 (əlli) min ABŞ dolları ekvivalentindən yuxarı məbləğdə vəsaitin köçürülməsi üzrə - təqvim ili ərzində 50 (əlli) min ABŞ dolları ekvivalentindən yuxarı məbləğin 20% miqdarında. Bu halda fiziki şəxs tərəfindən həmin təqvim ili ərzində fiziki şəxsin hesab açmadan xarici valyutada apardığı pul köçürməsi əməliyyatları da nəzərə alınır.

- rezident və qeyri-rezident fiziki şəxslər tərəfindən xarici valyutanın (təsdiqedici sənədlər əsasında) köçürülməsinə şamil edilmir:

  - müalicə haqqının ödənilməsi ilə bağlı xarici ölkədə yerləşən səhiyyə müssisəsinin hesabına ödənişlər;

© 2016 KPMG Azerbaijan Limited. Bütün hüquqlar qorunur.

- təhsil haqqının ödənilməsi ilə bağlı xarici ölkədə yerləşən təhsil müəssisəsinin hesabına ödənişlər;
- xarici ölkələrin məhkəmə və hüquq mühafizə orqanları qərarlarının icrası ilə bağlı ödənişlər.

Bir sıra valyuta əməliyyatları ödəniş kartları vasitəsilə həyata keçirildikdə rezident və qeyri-rezident fiziki və hüquqi şəxs bu barədə əməliyyatın aparıldığı gündən bir ay müddətində ödəniş kartının emitenti olan müvəkkil banka əməliyyatın məbləğinin 20% miqdarında dövlət büdcəsinə icbari yığımın ödənilməsini təsdiq edən sənədi təqdim edir.

---

**Əlaqə:**

**Vüqar Əliyev**
**İdarəedici Partnyor**

**Müşfiq Əliyev**
**Direktor,**
**Vergi və Hüquq Departamentinin Rəhbəri**

**Fərid İsayev**
**Baş Menecer,**
**Hüquq Xidmətlərinin Rəhbəri**

**KPMG Azerbaijan Limited**
Port Baku, 12-ci mərtəbə
Neftçilər prospekti, 153
AZ1010, Bakı şəhəri, Azərbaycan
Tel. +99412 404 8910 / 11
Faks +99412 404 8914
**www.kpmg.az**

*Hazırkı məlumat ümumi səciyyə daşıyır və xüsusi bir fiziki və ya hüquqi şəxsin xüsusiyyətini xarakterizə etmir. Baxmayaraq ki, biz düzgün və zamanlı məlumat verməyə çalışırıq, biz təminat verə bilmərik ki, bu məlumat tərəfimizdən əldə edildiyi zaman düzgündür və gələcəkdə də düzgün olmağa davam edəcəkdir. Heç bir şəxs bu məlumatdan peşəkar təhlil olunmadan istifadə edə bilməz.*

*KPMG-nin adı, loqosu və "cutting through complexity" qeydə alınmış ticarət nişanları və ya KPMG International ticarət nişanlarıdır.*

*© 2016 KPMG Azerbaijan Limited şirkəti, Guernsey qanunvericiliyinə əsasən yaradılmış, Azərbaycan Respublikasındakı Nümayəndəliyi vasitəsilə fəaliyyət göstərən və KPMG International Cooperative ("KPMG International"), müstəqil üzv şirkətləri şəbəkəsinin üzvü olan, İsveçrə şirkətidir. Bütün hüquqlar qorunur.*